# Heydər Əliyev yolu Azərbaycanı yeni-yeni qələbələrə aparan yoldur

***Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın XX əsr tarixində xüsusi iz buraxmış uzaqgörən siyasi xadim, görkəmli şəxsiyyətdir. Bu il onun Azərbaycanda birinci dəfə hakimiyyətə gəlməsindən 52, ölkəmizin müstəqilliyi üçün böyük təhlükə yarandığı bir vaxtda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtmasından 28, vəfatından isə 18 il ötür. Bu rəqəmləri, təbii ki, təsadüfən qabartmırıq. Məsələ bundadır ki, zaman keçdikcə Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqı və Vətəni üçün nə qədər əvəzsiz bir şəxsiyyət olduğunu bir daha əyani şəkildə görür, onun apardığı siyasətin xoş bəhrələrinin şahidi oluruq.***



Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik illəri ölkədə böyük quruculuq dövrü kimi daim xatırlanır. Azərbaycanda sənaye, tikinti, elektronika, neft-qaz, kimya və digər sahələr böyük sürətlə inkişaf edir, ittifaq əhəmiyyətli yeni zavodlar, fabriklər tikilir, kənd təsərrüfatında ciddi nailiyyətlər əldə olunurdu. Son nəticədə Azərbaycan SSRİ-nin ən öndə gedən respublikalarından birinə çevrildi. Həmin illərdə Heydər Əliyev siyasətini elə qururdu ki, görülən işlər on illər sonra da Azərbaycana fayda versin.

Görkəmli dövlət xadiminin 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəlişi və qurduğu siyasət isə Azərbaycanın elə bir yüksəlişinə səbəb oldu ki, son nəticədə ulu öndərin vəfatından 18 il sonra Prezident İlham Əliyevin sərkərdiliyi ilə Qarabağı Azərbaycana qaytarmaq mümkün oldu.

Heydər Əliyevi Azərbaycan xalqı torpaqlarının bir hissəsi erməni quldurları tərəfindən işğal edildiyi, müstəqilliyinin, demək olar ki, itirilmək üzrə olduğu bir vaxtda ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü il iyunun 15-də o, Milli Məclisin sədri seçildi. Həmin il oktyabrın 3-də isə xalqımız böyük səs çoxluğu ilə Heydər Əliyevi özünə prezident seçdi və ölkəmizin taleyini onun müdrik rəhbərliyinə etibar etdi.

Ulu öndər oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində demişdir: “Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm”.

Belə də oldu. Azərbaycan Prezidenti İlham Əliyevin sözləri ilə desək, “müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuşdur”.

Bu gün Azərbaycanda hər kəs etiraf edir ki, tarixə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyunda ulu öndər yenidən hakimiyyətə gəlməsəydi, indi biz müstəqil, qüdrətli, tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Ümummilli lider ölkədə siyasi sabitliyi, sosial-iqtisadi inkişafı təmin etdi. 1994-cü ildə “Əsrin müqaviləsi” imzalandı, çoxlarının əfsanə hesab etdiyi Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin çəkilişi reallaşdı.

Məhz onun rəhbərliyi ilə ölkənin dünya birliyinə inteqrasiyası təmin olundu, beynəlxalq təşkilatlarla bərabərhüquqlu əməkdaşlıq yaradıldı. 2001-ci il yanvarın 25-də ölkəmiz Avropa Şurasına tamhüquqlu üzvü oldu. Ümumiyyətlə, Heydər Əliyev siyasi kursu Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına, möhkəmləndirilməsinə və inkişafına istiqamətlənmişdi.

Heydər Əliyevin Ermənistanın işğal siyasətinə qarşı qurduğu milli müdafiə siyasəti isə aradan on illər keçsə də, Azərbaycanı şanlı qələbəyə qovuşdurdu. Doğrudur, sonrakı illərdə Prezident İlham Əliyev bu istiqamətdə cəsarətli addımlar atdı. Azərbaycan ordu quruculuğu və silah-sursatla təminat sahəsində böyük işlər gördü. Amma siyasətin əsası, təbii ki, Heydər Əliyev tərəfindən qoyulmuşdu və son nəticədə qələbəyə hesablanmışdı. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan xalqı hələ 1993-cü ildə üzünü Heydər Əliyevə tutmaqda səhv etməyib. Heydər Əliyev yolu – Azərbaycanı inkişafa, yeni-yeni qələbələrə aparan yoldur.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti.- 2021.- 3 oktyabr.- S.4.